**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**10.01.2022-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 3**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. İctimai səhiyyə fakültəsi kafedralarında tədris prosesinin, tədris-metodik sənədlərinin yoxlanılmasının nəticələri barədə Dekanlığın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin;

2. ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Ş.Balayevanın kafedranın 2020-2021-ci tədris ilində kafedranın fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin;

3. Təhsil Keyfiyyətinin Menecmenti Komissiyasının (TKMK) üzvləri təsdiq olunsun.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedraların fəaliyyətini əks etdirən sənədlərin vaxtında və düzgün doldurulmasına nəzarət gücləndirilsin;

2. Kafedralarda tədris-metodik sənədlərin yoxlanılması işinə nəzarət edən TKMK-nın fəaliyyətinə şərait yaradılsın;

3. Kafedraların tədris olunan fənlərə uyğun dərs vəsaitləri ilə(hər 3 dildə) təhciz olunmasına diqqət artırılsın;

4. Yeni ixtisaslar üzrə tədris proqramlarının işlənməsi və ona uyğun tədris vəsaitlərinin (hər 3 dildə) hazırlanmasına nəzarət gücləndirilsin;

5. Kafedralarda tədris olunan fənlərin proqramlarına uyğun mühazirə və praktik məşğələ materiallarının mətnlərinin yaz semestri başlayana qədər (16.02.2022) amu.edu.az saytında yerləşdirilməsi təmin edilsin.

III. FEŞ-na təqdim olunan hesabatlar (kafedra müdirləri, doktorant və dissertantlar) şurada qəbul olunmuş formada məruzə edilsin.

IV. Dekanlığa tapşırılsın ki, nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. Y.H.Hacıyeva